**AUDİT 2023, 1 (39), səh. 100-107.**
**AUDIT 2023, 1 (39), pp. 100-107.**
**АУДИТ 2023, 1(39), стр. 100-107.**

**DOI: 10.59610/bbu1.2023.100-107**

*Sadıqov Rahim Fərahim oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru, dosent,*
*Bakı Biznes Universiteti*
*E-mail: s.rahim72@mail.ru*
*© Sadıqov R.F., 2023*

**UOT - 351**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN DÖVLƏT İDARƏÇİLİYİ MƏKTƏBİ

## X Ü L A S Ə

Məqalə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində atdığı uğurlu addımlara, əldə olunan səmərəli nəticələrə həsr olunmuşdur. Azərbaycan dövlətçiliyinin memarı dahi şəxsiyyət Heydər Əliyev müasir dövlət idarəçiliyi sahəsində elmi-praktiki məktəbin banisidir. Məqalədə Heydər Əliyevin dövlət idarəçiliyi sahəsində misilsiz xidmətlərindən bəhs olunur, yaratdığı idarəçilik məktəbinin fəlsəfəsindən söhbət açılır. Heydər Əliyev idarəçilik məktəbinin nəzəri və praktiki əsasını Azərbaycan dövlətinə rəhbərlik etdiyi dövrlərdə həyata keçirdiyi siyasi-iqtisadi idarəçilik fəaliyyəti və prinsipləri təşkil edir. Heydər Əliyevin idarəçilik məktəbi bu gün də gənc nəslin formalaşması və inkişafı istiqamətində, onların dövlət idarəçiliyində uğurla təmsil olunmasında əhəmiyyət kəsb edir.

Məqalədə Heydər Əliyevin idarəçilik fəaliyyətinin əsas istiqamətləri, prioritetləri təhlil edilmiş, onun dövlət inzibatçılığı sahəsində sosial-iqtisadi siyasətinin əsas istiqamətləri və strateji hədəfləri elmi-praktik cəhətdən əsaslandırılmışdır. Heydər Əliyev ölkə iqtisadiyyatının inkişafına hər zaman kompleks yanaşmış, qeyri-neft sektorunun inkişafına yüksək önəm vermiş, dövlət idarəçiliyi fəaliyyətində bu sahədə uğurlu addımlar atmışdır. Ölkəmizin ərazi bütövlüyünün təmin olunması onun siyasi idarəçilik fəaliyyətinin ana xəttini təşkil edirdi. Bu məsələ hər zaman onun diqqət mərkəzində olmuş, xarici siyasətinin əsas prioritetinə çevrilmişdir.

Məqalədə Ulu Öndər Heydər Əliyevin iqtisadi siyasəti geniş izah olunmuş, onun hakimiyyəti dövrü üçün ölkənin makroiqtisadi göstəricilərinin təhlili aparılmaqla, siyasi liderin idarəçilik fəaliyyətinin uğurlu nəticələri müzakirə olunmuşdur. Bu məqsədlə də biz Heydər Əliyevin hakimiyyəti illərində ümum daxili məhsulunun artım templəri, sənaye məhsulunun istehsal (mülkiyyət növlərinə görə) göstəricilərinin, habelə özəl sektorun sənaye istehsalındakı xüsusi çəkisininin artım dinamikası təhlil olunmuşdur. Bu cür təhlillər deməyə əsas verir ki, Heydər Əliyevin idarəçilik fəaliyyəti dövründə iqtisadiyyatın inkişafının əsas xəttini ümumdaxili məhsulda özəl sektorun xüsusi çəkisinin yüksəldilməsi təşkil etmişdir.

Məqalədə Ulu Öndərin idarəçilik kursunun davamçısı kimi İlham Əliyevin də uğurlu idarəçilik fəaliyyətindən bəhs olunmuşdur. İlham Əliyev tərəfindən siyasi xəttin müvəffəqiyyətlə davam etdirilməsi sonrakı dövrlərdə iqtisadi sahədə makroiqtisadi göstəricilərin uğurlu dinamikasında özünü tam aydın göstərir. Bu onunla əlaqədardır ki, Möhtərəm Prezidentimiz İlham Əliyev Ümummilli Liderin siyasi iqtisadi xəttinin layiqli davamçısıdır. Bu cür davamlı fəaliyyət əlbəttə ki, ölkəmizin siyasi və sosial-iqtisadi fəaliyyətinin inkişafının əsasını təşkil edir.

**Açar sözlər:** dövlət idarəçiliyi, idarəçilik məktəbi, ümum daxili məhsul, sənaye sahəsi, özəl sektor, iqtisadi inkişaf.

**AUDİT 2023, 1 (39), səh. 100-107.**
**AUDIT 2023, 1 (39), pp. 100-107.**
**АУДИТ 2023, 1(39), стр. 100-107.**

## G İ R İ Ş

Azərbaycan dövlətçiliyinin memarı Ulu Öndər Heydər Əliyev dövlət idarəçiliyi sahəsində özünün misilsiz xidmətləri və əməlləri ilə idarəçilik praktikasında yeni məktəbin əsasını qoydu. Biz bu məktəbi Ulu Öndərin idarəçilik fəaliyyətində özünəməxsus strategiyaları, hədəfləri, missiyaları, gələcəyə baxış konsepsiyalarını özündə birləşdiən müasir idarəçik nəzəriyyələrinin məcmusu kimi dəyərləndirə bilərik.

Çoxəsrlik dövlət idarəetmə ənənələrinə malik olan xalqımızın idarəçilik tarixində Heydər Əliyevin siyasi fəaliyyəti əvəzis yer tutur. Fəxrlə deyə bilərik ki, xalqımız özünün ümummilli dövlətçilik amallarına Ümummilli Lider Heydər Əliyevin sayəsində nail ola bildi. Sözsüz ki, bu nailiyyətin əsasını Heydər Əliyevlə xalqın vəhdəti və birliyi təşkil etmişdir. 30 ildən artıq dövrdə Azərbaycan Respublikasına rəhbərlik etmiş dahi şəxsiyyət dövlət idarəçilik tarixində elə özünəməxsus milli irs qoymuşdur ki, həmin irs Heydər Əliyevin idarəçilik məktəbinin əsas konsepsiyasını təşkil edir. Bu təcrübədən yararlanmaqla gənclərimizin idarəçilik və yaradıcılıq təşəbbüslərinə yiyələnməsi onların gələcək idarəçilik perspektivlərinin əsasını təşkil edir. Gənclərimizin bu ruhda tərbiyələnməsi vətəndaş cəmiyyətimizin inkişafı üçün xeyli əhəmiyyət kəsb edir.

Ölkəmizin makroiqtisadi mühitini müəssisələrin strateji fəaliyyəti və təkmil rəqabət strategiyası üçün münbit hesab etmək olar. Ümummilli Lider Heydər Əliyev Azərbaycanda iqtisadi tərəqqinin mənbələrindən biri hesab edilən sahibkarlıq mexanizminin, respublikaya investisiyaların cəlb edilməsinin iqtisadi sahədə qanunvericilik bazasını yaratmış, yeni yaranmış dövlətdə istehsal münasibətlərinin əsasını qoymuşdur. Heydər Əliyevin münbit iqtisadi mühitin formalaşması və inkişafında xüsusi rolu ondan ibarət olmuşdur ki, o, Azərbaycanın bütün sahədə inkişaf strategiyasını müəyyənləşdirdi, rəqabətədavamlı iqtisadiyyatın əsasını qoydu, əsrin müqaviləsinin bağlanmasına, özəlləşdirməyə dair Dövlət Proqramının hazırlanması və həyata keçirilməsinə nail oldu.

### Xarici siyasətin Azərbaycan modeli

Heydər Əliyevin Azərbaycanda həyata keçirdiyi uğurlu daxili və xarici siyasət nəticəsində ölkəmiz beynəlxalq aləmdə tanınmağa başladı. Xarici siyasətin Azərbaycan modeli kimi tanınan siyasət mexanizmi Azərbaycanın diplomatik siyasətini öz milli maraqlar çərçivəsində qurdu. Azərbaycanın Xarici siyasətində mövcud reallıqlar nəzərə alınmaqla, ölkənin siyasi, iqtisadi, ərazi mənafelərinin qorunmasına yönəldilmiş bir sıra əməli dəyişikliklər edildi. Ölkəmizin beynəlxalq münasibətlər sistemində yeri, habelə Avropa ölkələri, ABŞ-la, post sovet ölkələri, Türkiyə və türkdilli dövlətlərlə, müsəlman dünyası ilə prioritetləri müəyyənləşdirildi.

80-ci illərin sonlarında ərazilərimiz erməni qəsbkarlarının işğalçılıq siyasətinə tuş gəlməklə, həmvətənlərimiz ev-eşiklərindən didərgin düşmüş, doğma torpaqlarından qaçqın düşərək çox böyük və dözülməz sosial problemlərlə rastlaşdılar. Öz doğma torpaqlarından qovulmuş soydaşlarımız ev-eşiklərindən daimi yaşayış yerlərindən məhrum olaraq, respublikamızın bir sıra rayon və şəhələrində məskunlaşdılar. Ümummilli Liderimiz Heydər Əliyevin sosial-iqtisadi strategiyasının və uzaqgörən siyasətinin sayəsində həmvətənlərimiz məskunlaşdıqları ərazilərdə qışlaq və yaylaq sahələri, əkin yerləri ilə təmin olundular.

Heydər Əliyevin apardığı xarici siyasətin və hərbi strategiyanın məntiqi nəticəsidir ki, Ali Baş Komandanımız İlham Əliyev cənablarının rəhbərliyi və ordumuzun rəşadəti nəticəsində işğal altında olan torpaqlarımız azad olundu. Qarabağ münaqişəsinin həlli istiqamətində Ulu Öndər Heydər Əliyev problemin beynəlxalq normalar çərçivəsində həllinə istiqamətlənmişdir.

AUDİT 2023, 1 (39), səh. 100-107.
AUDIT 2023, 1 (39), pp. 100-107.
АУДИТ 2023, 1(39), стр. 100-107.

Azərbaycan dünya informasiya blokadasında idi. Bu informasiya blokadasını yarmaq, həqiqəti dünyaya bəyan etmək, Azərbaycanın hərbi-siyasi potensialını artırmaq prosesi müəyyən zaman və işlərin həyata keçirilməsini tələb edirdi. Bu cür strateji fəaliyyətin bünövrəsi və başlanğıc mərhələləri Heydər Əliyevin rəhbərliyi ilə başladı. Lakin strateji fəaliyyətin növbəti mərhələsi İlham Əliyevlə uğurla davam etdirildi, nəticədə torpaqlarımız işğaldan azad edildi. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı səmərəli və məqsədyönlü siyasət özünün nəticələrini verdi.

**Azərbaycan dövlətinin iqtisadi prioritetləri**

Heydər Əliyevin idarəetmə prioritetlərindən biri ölkəmizi qlobal məkanda iqtisadi cəhətdən güclü dövlətə çevrilməsindən ibarət idi. Bu məqsədlə o, ölkənin iqtisadi inkişafına yönəlməklə, makroiqtisadi göstəricilərin inkişafını, sənayenin, eləcə də emal sənayesinin inkişafını hədəf seçmişdir.

Sovetlər məkanının dağılması ilə müstəqil dövlətə çevrilən, Qarabağ müharibəsinin ağrıacısından iqtisadi zərər çəkən respublikamız özünün çətin dövrlərini yaşayırdı. Məhz Heydər Əliyevin hakimiyyətə gəlişi və qayıdışı xalqa bu iqtisadi böhrandan çıxmaq ümidini verdi. Çox keçmədi ki ölkəmizdə iqtisadi tənəzzülün qarşısının alınması və islahatların aparılması məqsədilə düzgün iqtisadi siyasət aparmaqla Ümummilli Liderimiz iqtisadi inkişafın əsasını qoydu. Bu inkişaf ümumi daxili məhsul göstəricisinin dinamikasından da aydın görsənir.

*Cədvəl 1.*

**1993-2003-cü illərdə Azərbaycan Respublikasında Ümumi Daxili Məhsulunun həcmi**

| | Cəmi | | Adambaşına | |
|---|---|---|---|---|
| | milyon manatla | milyon dollarla | manatla | dollarla |
| 1993-ci il | 31,4 | 1326,9 | 4,3 | 179,9 |
| 1994-ci il | 374,7 | 1629,3 | 50,1 | 217,9 |
| 1995-ci il | 2133,8 | 2415,2 | 282,1 | 310,3 |
| 1996-ci il | 2732,6 | 3180,8 | 357,2 | 416,1 |
| 1997-ci il | 3158,3 | 3960,7 | 409,2 | 513,2 |
| 1998-ci il | 3440,6 | 4446,4 | 441,5 | 570,6 |
| 1999-ci il | 3775,1 | 4583,7 | 480,1 | 582,9 |
| 2000-ci il | 4718,1 | 5272,8 | 593,2 | 662,9 |
| 2001-ci il | 5315,6 | 5707,7 | 661,7 | 710,5 |
| 2002-ci il | 6062,5 | 6235,9 | 747,5 | 768,9 |
| 2003-ci il | 7146,5 | 7276,0 | 872,7 | 888,5 |

Cədvəldən göründüyü kimi, Heydər Əliyev hakimiyyətə gələrkən adambaşına düşən ÜDM 4 manat 30 qəpik edirdi. Azərbaycan manatı 1992-ci ilin avqustun 15-də rublun 1-ə 10 nisbətində dövriyyəyə buraxılmışdı. Manatın dollara məzənnəsi o zaman hələ bazar qiymətində öz əksini real olaraq tapmamışdı. Həmin dövrlərdə köhnə hakimiyyətin səriştəsiz idarəetmə fəaliyyətinin nəticəsi idi ki, Azərbaycan manatı sürətlə inflyasiyaya uğramağa başlamışdı.

Bu baxımdan yaxşı olar ki, biz ÜDM-un illər üzrə artım dinamikasını dollarla təhlil edək. Təhlilləri dollarla apardığımız təqdirdə görərik ki, 1993-cü ildə ÜDM 1326,9 milyon dollar, adambaşına düşən ÜDM 179,9 dollar təşkil etmişdir. 2003-cü ildə bu göstəricilər müvafiq

**AUDİT 2023, 1 (39), səh. 100-107.**
**AUDIT 2023, 1 (39), pp. 100-107.**
**АУДИТ 2023, 1(39), стр. 100-107.**

olaraq 7276,0 milyon dollar və 888,5 dollar təşkil etmişdir. Yəni 10 il ərzində, adambaşına düşən ÜDM 4,9 dəfə artmışdır.

Heydər Əliyev ölkəmizdə sənayeləşmə prosesinin inkişaf istiqamətlərini və prioritetlərini müəyyən etdi. Sənaye sahəsində qeyri-dövlət müəssisələrinin məhsul istehsalındakı xüsusi payının sürətli artımının strateji dinamikasının əsasını qoydu.

***Cədvəl 2.***

**Sənaye məhsulunun 1994-2003-cü illər ərzində istehsalı (mülkiyyət növlərinə görə)**

| Mülkiyyət növləri | 1994 | 1996 | 1998 | 2000 | 2002 | 2003 |
|---|---|---|---|---|---|---|
| Bütün mülkiyyət növləri üzrə | 227,6 | 2392,8 | 2575,0 | 3639,0 | 4019,0 | 4982,1 |
| Dövlət mülkiyyəti | 222,8 | 2213,0 | 1715,0 | 1879,0 | 1811,0 | 2153,0 |
| Qeyri-dövlət mülkiyyəti | 4,8 | 179,5 | 860,4 | 1760,0 | 2208,0 | 2829,0 |

Cədvəldən göründüyü kimi, Ulu Öndər Heydər Əliyevin idarəçilik dövründə sənaye məhsulunun istehsalı 10 il ərzində 4754,5 milyon manat, yəni 21,9 dəfə artmışdır. Artım dinamikası ən çox 1994-1996-cı illərə təsadüf edir. Çünki Heydər Əliyevin hakimiyyəti dövründən qabaq Azərbaycan iqtisadiyyatı özünün tənəzzül dövrünü yaşayırdı. Ulu Öndərin hakimiyyətə gəlişi ilə sənaye iqtisadiyyatında da sıçrayış templəri köklü formada hiss olunmağa başladı.

**Sənaye məhsulunun 1994-2003-cü illər ərzində istehsalın artım dinamikası**




Sənaye istehsalının bu cür artım tempi ölkədə yüksək iqtisadi inkişaf tempindən xəbər verir. İqtisadi sahədə aparılan islahatlar, Azərbaycanın qlobal iqtisadi məkanda mövqelərinin möhkəmlənməsi, ölkədə sənayeləşmə prosesinin vüsət alması, sözsüz ki, məntiqi nəticələrini bu cür verməyə bilməzdi.

Lakin Heydər Əliyevin iqtisadi sahədə fəlsəfəsinin əsasını Azərbaycan iqtisadiyyatının

**AUDİT 2023, 1 (39), səh. 100-107.**
**AUDIT 2023, 1 (39), pp. 100-107.**
**АУДИТ 2023, 1(39), стр. 100-107.**

neftdən asılılığını azaltmaq və sənaye istehsalında özəl sektorun istehsal payını artırmaqdan ibarət idi. Cədvəl 1-də sənaye istehsalında özəl sektorun istehsal payının xüsusi çəkisinin dinamik artımını aşağıdakı diaqramda təsvirini vermişik.

**Sənaye istehsalında dövlət və xüsusi mülkiyyətin xüsusi çəkisi.**




Diaqramdan göründüyü kimi, həmin dövr ərzində özəl sektorun sənaye məhsullarının istehsalındakı xüsusi çəkisini 0,02%-dən 56,8%-ə çatmışdır. Bu o deməkdir ki, Heydər Əliyevin idarəçilik dövründə iqtisadiyyatın inkişafının ana xəttini özəl sektorun inkişaf prioritetləri təşkil etmişdir. Lakin bu cür əməli fəaliyyətlər Heydər Əliyev kursunun layiqli davamçısı İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilmiş, sənaye sahəsində inkişaf dinamikası sonrakı dövrlərdə də əhəmiyyətli bəhrəsini vermişdir.

***Cədvəl 3.***

**Sənaye məhsulunun 1994-2003-cü illər ərzində istehsalı (mülkiyyət növlərinə görə)**

| Mülkiyyət növləri | 2004 | 2005 | 2010 | 2015 | 2020 | 2021 |
|---|---|---|---|---|---|---|
| Bütün mülkiyyət növləri üzrə | 5961,4 | 9309,0 | 27978,0 | 26369,4 | 37269,9 | 55229,1 |
| Dövlət mülkiyyəti | 2493,0 | 2737,0 | 5575,0 | 6228,0 | 8101,7 | 9194,3 |
| Qeyri-dövlət mülkiyyəti | 3468,0 | 6572,0 | 22403,0 | 20141,4 | 29168,2 | 46034,8 |

Cədvəldən göründüyü kimi, İlham Əliyevin idarəçiliyi dövründə sənaye istehsalı 5961,4 milyon manatdan 55229,1 milyon manatadək, yəni 9,3 dəfə artmış, özəl sektorun payı isə bu müddət ərzində 56,8%-dən 83,4%-ə qalxmışdır.

Möhtərəm Prezidentimiz Cənab İlham Əliyev Heydər Əliyev idarəetmə məktəbinin ən layiqli davamçısıdır. İlham Əliyevin dövlətçilik kursu bu irsdən bəhrələnərək, cəmiyyətimizə, milli iqtisadiyyatımızın inkişaf dinamikasına yeni ruh, yeni çalarlar gətirməyə nail olur. Bakı Biznes Universiteti də bu irsdən töhfə almaqla tələbələrin milli ruhda tərbiyələnməsi, onların müasir idarəçilik prinsiplərinə yiyələnməsi sahəsində nailiyyətlər əldə edir. Belə ki, idarəetmə

**AUDİT 2023, 1 (39), səh. 100-107.**
**AUDIT 2023, 1 (39), pp. 100-107.**
**АУДИТ 2023, 1(39), стр. 100-107.**

məktəbinin prinsiplərinin təbliği iqtisadiyyat və idarəetmə ixtisas qruplarında təhsil alan tələbələrin bu sahədə kompetensiya və bacarıqlarının formalaşdırılması üçün önəmlidir. Hətta Bakı Biznes Universitetində Heydər Əliyev məktəbi fəaliyyət göstərir ki, bu məktəb Ulu Öndərin idarəçilik ideyalarının, iqtisadi sahədə inzibatçılıq fəlsəfəsinin təbliğini həyata keçirir. Onu da qeyd edək ki, məktəb gənclərimizin milli ruhda, habelə ideya-siyasi cəhətdən tərbiyələnməsinə xidmət edir.

Ölkə Prezidenti Cənab İlham Əliyev sənayenin modernləşdirilməsinin və qeyri-neft sənayesinin inkişafı məqsədi ilə mövcud iqtisadi resursların iqtisadi-təsərrüfatçılıq dövriyyəsinə cəlb olunması, yeni istehsal sahələrinin, habelə sənaye parklarının formalaşdırılması və inkişafı məqsədilə, regionlarda sənayeləşmə prosesinin gücləndirilməsi, innovasiyalar əsasında sənayenin inkişafının təmin olunmasını prioritet kimi müəyyənləşdirmişdir. İqtisadi fəaliyyət sahələrində modernləşdirilmənin həyata keçirilməsi əmək bölgüsünün dərinləşməsi, istehsalın texnoloji cəhətdən yenidən qurulması, istehsalın idarəetmə sisteminin səmərəliliyinin yüksəldilməsi sayəsində təkrar istehsal prosesinin intensivləşdirilməsini nəzərdə tutur.

Ali Baş Komandan Heydər Əliyevin hərbi siyasi xəttini uğurla davam etdirərək, onun ideyalarını və nəsihətlərini əldə rəhbər tutaraq, 44 günlük vətən müharibəsində vətən oğullarımızın rəşadətli mübarizəsi sayəsində torpaqlarımızı azad etdi. Bu gün Qarabağ və ətraf rayonlarda quruculuq işləri görülür, həmvətənlərimizin doğma yurdlarına qayıtması istiqamətində əməli addımlar atılır.

## YEKUN

Ulu Öndər Heydər Əliyev Respublikada milli iqtisadiyyatının artım tempinin sürətlənməsində, ölkənin sosial-iqtisadi inkişafına töhfə vermiş, vətənimizin qlobal məkanda tanınmasında mühüm rol oynamışdır.

Hazırkı mərhələnin başlıca prioritetləri çoxşaxəli, səmərəli və innovativ iqtisadiyyatın formalaşmasına əsaslanaraq Heydər Əliyevin ideya və prioritetləri sayəsində sosial sahədə önləyici inkişafın təmin olunması, əhalinin rifahının ən qabaqcıl beynəlxalq standartlara çatdırılmasıdır.

Azərbaycan Respublikası müasir dünyada qəbul edilmiş dövlət idarəetmə sistemlərinə uyğun milli dövlət quruculuğu istiqamətində innovativ islahatları uğurla davam etdirir. Ölkəmizin XXI əsrdə innovativ modernləşmə mərhələsinə keçməsini, cəmiyyətin zamanın ruhuna uyğun olan yeni duruma transformasiyasını sürətləndirəcək istiqamətlər və prioritetlər müəyyənləşdirilir. Bu kimi prioritetlər öz mənbəyini Heydər Əliyevin idarəçilik siyasətindən götürür.

### İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. Azərbaycan Respublikası Prezidentinin 2 fevral 2021-ci il tarixli sərəncamı. Bakı, 2021. 101 s.
1. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1997. 608 s.
2. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1997. 488 s.
3. Əliyev Heydər. "Müstəqilliyimiz əbədidir". Bakı, 1998. 520 s.
4. Əliyev İlham. "İnkişaf məqsədimizdir". Bakı, 2009. 492 s.

**AUDİT 2023, 1 (39), səh. 100-107.**
**AUDIT 2023, 1 (39), pp. 100-107.**
**АУДИТ 2023, 1(39), стр. 100-107.**

*Rahim Farahim Sadigov,*
*Ph.D. (Econ.), Associate Professor,*
*Baku Business University,*
*E-mail: s.rahim72@mail.ru*
*© R.F. Sadigov, 2023*

# SCHOOL OF PUBLIC ADMINISTRATION OF NATIONAL LEADER HEYDAR ALIYEV

## A B S T R A C T

The article is dedicated to the National Leader of the Azerbaijani people Heydar Aliyev, to his successful steps in the field of public administration, and its effective results. The genius architect of Azerbaijani statehood Heydar Aliyev is the founder of the scientific-practical school in the field of modern state administration. The article talks about the unparalleled services of Heydar Aliyev in the field of public administration, and discusses the philosophy of the management school he created. The theoretical and practical basis of the Heydar Aliyev's administration school is the political and economic activities and principles he carried out during his leadership in Azerbaijan. Even today, Heydar Aliyev's administration school is important for the formation and development of the young generation and their successful representation in state administration.

In the article, the main directions and priorities of Heydar Aliyev's administrative activity are analyzed, the main directions and strategic goals of his socio-economic policy in the field of public administration were scientifically and practically justified. Heydar Aliyev has always taken a comprehensive approach to the development of the country's economy, attached great importance to the development of the non-oil sector, and took successful steps in this field in the activities of state administration. Ensuring the territorial integrity of our country was the main line of his political administrative activities. This issue has always been in the center of his attention and has become the main priority of his foreign policy.

In this article, the Great Leader's economic policy is explained in detail, the macroeconomic indicators of the country are analyzed for the period of his rule, and the successful results of the political leader's administrative activities are discussed. For this purpose, during the years of Heydar Aliyev's power, the growth rates of the Gross Domestic Product, the indicators of the production of industrial products (by types of ownership), as well as the growth dynamics of the private sector in the industrial products were analyzed. From these analyses, it can be concluded that during Heydar Aliyev's administration, the main line of economic development was the increase of the private sector's weight in the total domestic product.

The successful management activity of Ilham Aliyev as a follower of the politic course of the Great Leader is mentioned in the article. The successful continuation of the political line by Ilham Aliyev is evident from the successful dynamics of macroeconomic indicators in the economic field. This is related to the fact that our Honorable President Ilham Aliyev is a worthy follower of the political and economic line of the General National Leader. This kind of continuous activity is, of course, the basis of the development of the political and socio-economic activity of our country.

**Keywords:** public administration, management school, gross domestic product, industry, private sector, economic development.

**AUDİT 2023, 1 (39), səh. 100-107.**
**AUDIT 2023, 1 (39), pp. 100-107.**
**АУДИТ 2023, 1(39), стр. 100-107.**

*Садыгов Рахим Фарахим оглы,*
*доктор философии по экономике, доцент,*
*Бакинский Университет Бизнеса*
*E-mail: s.rahim72@mail.ru*
*© Садыгов Р.Ф., 2023*

# ШКОЛА ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА

## Р Е З Ю М Е

Статья посвящена Общенациональному Лидеру азербайджанского народа Гейдару Алиеву, его успешным шагам в сфере государственного управления и их эффективным результатам. Гениальный архитектор азербайджанской государственности Гейдар Алиев является основоположником научно-практической школы в области современного государственного управления. В статье рассказывается о беспримерных заслугах Гейдара Алиева в сфере государственного управления, а также рассматривается философия созданной им школы управления. Теоретическую и практическую основу школы управления Гейдара Алиева составляют политическая и экономическая деятельность и принципы, которые он проводил в период своего руководства Азербайджаном. Школа управления Гейдара Алиева и сегодня важна для формирования и развития молодого поколения и его успешного представительства в государственном управлении.

В статье были проанализированы основные направления и приоритеты управленческой деятельности Гейдара Алиева, научно и практически обоснованы основные направления и стратегические цели его социально-экономической политики в сфере государственного управления. Гейдар Алиев всегда комплексно подходил к развитию экономики страны, придавал большое значение развитию ненефтяного сектора, предпринимал успешные шаги в этой области в деятельности государственного управления. Обеспечение территориальной целостности нашей страны было основным направлением его политико-управленческой деятельности. Этот вопрос всегда был в центре его внимания и стал главным приоритетом его внешней политики.

В статье подробно разъясняется экономическая политика Общенационального Лидера, анализируются макроэкономические показатели страны за период его правления, обсуждаются успешные результаты административной деятельности политического лидера. С этой целью за годы правления Гейдара Алиева были изучены темпы роста валового внутреннего продукта, показатели производства промышленной продукции (по формам собственности), а также динамика роста частного сектора в промышленной продукции. Из этих анализов можно сделать вывод, что во время правления Гейдара Алиева основной линией экономического развития было увеличение доли частного сектора в общем объеме внутреннего продукта.

В статье отмечена успешная управленческая деятельность Ильхама Алиева как последователя политического курса Великого лидера. Об успешном продолжении политической линии со стороны Ильхама Алиева свидетельствует успешная динамика макроэкономических показателей в экономической сфере. Это связано с тем, что наш уважаемый Президент Ильхам Алиев является достойным последователем политической и экономической линии Общенационального лидера. Такого рода непрерывная деятельность, безусловно, является основой развития политической и социально-экономической деятельности нашей страны.

**Ключевые слова:** государственное управление, школа менеджмента, валовой внутренний продукт, промышленность, частный сектор, экономическое развитие.

*Məqalə redaksiyaya daxil olmuşdur: 13.01.2023*
*Təkrar işləməyə göndərilmişdir: 26.01.2023*
*Çapa qəbul olunmuşdur: 08.02.2023*

*Дата поступления статьи в редакцию: 13.01.2023*
*Отправлено на повторную обработку: 26.01.2023*
*Принято к печати: 08.02.2023*

*The date of the admission of the article to the editorial office: 13.01.2023*
*Send for reprocessing: 26.01.2023*
*Accepted for publication: 08.02.2023*